**AUDİT 2023, 1 (39), səh. 135-142.**
**AUDIT 2023, 1 (39), pp. 135-142.**
**АУДИТ 2023, 1(39), стр. 135-142.**

**DOI: 10.59610/bbu1.2023.135-142**

*Cabbarov Ayətulla Suvahil oğlu,*
*iqtisad elmləri namizədi,*
*Bakı Biznes Universiteti,*
*E-mail:ayatulla.cabbarov@gmail.com*
*©Cabbarov A.S., 2023*

***«Respublika iqtisadiyyatı, demək olar ki, tamamilə dağıdılıb, xalqın rifah halı aşağı düşüb.... lakin Azərbaycanın coğrafi-siyasi vəziyyəti, onun təbii sərvətləri uzun illər boyu yaranmış əsas fondları respublikanı bu ağır böhrandan çıxarmağa imkan verir. Digər tərəfdən yeni islahatlar aparmaq yolu ilə bazar iqtisadiyyatına keçmək istiqamətində hərəkət etməliyik».***

**Ümummilli Lider Heydər Əliyev**

**UOT - 332.14**

# YENİLƏNƏN QLOBAL VƏ REGİONAL PERSPEKTİVLƏR KONTEKSTİNDƏ MÜASİR MİLLİ İQTİSADİ İNKİŞAF MODELİ

## X Ü L A S Ə

Azərbaycanın milli iqtisadi inkişaf modeli bir sıra cəhətlərinə görə başqalarına nəinki bənzəmir, həm də müəyyən üstünlükləri ilə seçilir. Bu modelin üstün tərəflərindən biri də onun sərbəst inkişaf etmək imkanında olmasıdır ki, bu da ölkədə daxili investisiya artımına, qlobal layihələrin dövlət büdcəsi hesabına reallaşdırılmasına, qlobal böhranların təsirlərindən məharətlə qorunmasına öz töhfəsini verir.

Məqalədə yenilənən qlobal və regional perspektivlər konteksində müasir milli iqtisadi inkişaf modelinin təməl prinsipləri, strateji inkişaf istiqamətlərinin nəzəri-metodoloji və praktiki tərəfləri təsvir edilmişdir.

Məqalədə Azərbaycanın milli iqtisadi inkişaf modeli elmi-nəzəri və praktiki baxımdan təhlil edilmiş, onun xüsusiyyətləri göstərilmiş, əldə edilən iqtisadi nəticələrə obyektiv qiymət verilmiş, yeni mərhələdə milli iqtisadi modelin konsepsiyası əsaslandırılmış, uzunmüddətli davamlı və tarazlı iqtisadi inkişafın proritet istiqamətləri göstərilmişdir. Eyni zamanda qlobal meyillər, çağırışlar və imkanlar, dayanıqlı və artan rəqabətqabiliyyətli iqtisadiyyat, dinamik, inklüziv və sosial ədalətə əsaslanan cəmiyyət çərçivəsində Azərbaycanın formalaşmış milli iqtisadi inkişaf modeli araşdırılmışdır.

**Açar sözlər***:* iqtisadi islahat, milli iqtisadi inkişaf modeli, makroiqtisadi sabitlik, ÜDM, dayanıqlı inkişaf, iqtisadiyyatın şaxələndirilməsi, strateji yol xəritəsi.

## G İ R İ Ş

32 il bundan öncə Azərbaycanın əldə etdiyi dövlət müstəqilliyi düşmən dövlətlər tərəfindən açıq-aşkar hərbi təcavüz və siyasi təzyiqlərə məruz qalmış, əhali iqtisadi sarsıntılarla qarşılaşmışdı. Qısa dövrdə bunların qarşısının alınması və ictimai-siyasi sabitliyin bərqərar olması Azərbaycanın davamlı inkişafına zəmin yaratmışdır. Başqa sözlə desək, həyata keçirilən düzgün

**AUDİT 2023, 1 (39), səh. 135-142.**
**AUDIT 2023, 1 (39), pp. 135-142.**
**АУДИТ 2023, 1(39), стр. 135-142.**

və düşünülmüş siyasət hesabına ağır ilkin şərtlərə baxmayaraq, ölkəmizin sosial-iqtisadi inkişafı və dünya təsərrüfat sisteminə inteqrasiyası sahəsində misilsiz uğurlar əldə olunub. Bu dövrdə ölkəmizdə aparılan müstəqil dövlət quruculuğu prosesində iqtisadi is-lahatların və inkişafın nəticəsi mahiyyət etibarı ilə yeni bir modelin - Azərbaycan modelinin yaranmasıdır.

Azərbaycanın milli iqtisadi inkişaf modeli bir sıra cəhətlərinə görə başqalarına nəinki bənzəmir, həm də müəyyən üstünlükləri ilə seçilir. Bu modelin üstün tərəflərindən biri də onun sərbəst inkişaf etmək imkanında olmasıdır ki, bu da daxili investisiya artmasına, qlobal layihələrin dövlət büdcəsi hesabına reallaşdırılmasına, qlobal böhranların təsirlərindən məharətlə qorunmasına öz töhfəsini verir.

Müasir mərhələdə Azərbaycan öz inkişafının keyfiyyətcə yeni mərhələsinə qədəm qoyub və özünün 2030-cu ilədək olan dövrü əhatə edən strateji hədəflərini- qüdrətli dövlət və yüksək rifah cəmiyyəti quruculuğu - müəyyənləşdirib.

**Sosial-iqtisadi inkişafın əsas şərtləri və cari vəziyyət**

Bu dönəmdə strateji əhəmiyyətli üç vəzifənin - müstəqil, demokratik, hüquqi dövlətin yaradılması və inkişaf etdirilməsi, ölkədə bazar iqtisadiyyatı modelinin tətbiqi və qlobal iqtisadi sistemə inteqrasiya edilməsi - eyni zamanda yerinə yetirilməsi vacib idi. Bu kontekst milli iqtisadi inkişaf modelinin tətbiqi, çoxşaxəli və miqyaslı islahat və inkişaf xarakterli tədbirlərin reallaşdırılması bazar iqtisadiyyatının formalaşmasında və sonrakı mərhələlərdə dinamik inkişafın təmin olunmasında, ölkə iqtisadiyyatının bütün sahələrinin inkişafında xüsusi əhəmiyyət kəsb etmişdir.

Milli iqtisadi inkişaf modelinin formalaşdırılmasının əsas şərtlərindən biri makroiqtisadi sabitliyin təmin edilməsdir. Makroiqtisadi sabitliyin təmin edilməsinə yönəlik siyasətin xarakterik cəhətləri çoxsaylı və çoxşaxəlidir. Bu dövrdə makroiqtisadi sabitliyin təmin edilməsində iki mühüm istiqamət - neft ehtiyatlarının iqtisadi dövriyəyə cəlb edilməsi və investisiya fəallığının yüksəldilməsi- prioritetlik təşkil edirdi.

Rəsmi statistik məlumatlara görə, 2006-cı ildə ölkədə xam neft (qaz kondensatı daxil olmaqla) hasilatı 32268 min ton, 2009-cu ildə 50416 min ton, 2010-cu ildə 50838 min ton, 2016-cı ildə 41050 min ton, 2021-ci ildə isə 34580 min ton təşkil etmişdir.

2006-cı illə müqayisədə 2021-ci ildə ölkədə təbii qaz hasilatı təxminən 5 dəfə, 2009-cu illə müqayisədə 83,3%, 2014-cü illə müqayisədə 47%, 2020-ci illə müqayisədə isə 18,9% artmışdır.

Təhlil edilən dövrdə Azərbaycan iqtisadiyyatına yönəldilən investisiyaların dinamikasında da mühüm meyillər formalaşmışdır. Belə ki, 2005-ci ildə bütün mənbələr üzrə ölkə iqtisadiyyatına yönəldilən investisiyanın həcmi 7118,5 mln. dollar, 2020-ci ildə 13225,9 mln. dollar, 2021-ci ildə isə 14890.4 mln. dollar təşkil etmişdir. 2005-ci ilə nisbətən 2021-ci ildə ölkə iqtisadiyyatına yönəldilən investisiyanın həcmi təxminən 2,1 dəfə, 2020-ci ilə nisbətən isə 15,4% artmışdır.

2005-ci ildə 7118,5 mln. dollarlıq investisyanın 4893,2 mln. dolları (68,7%) xarici investisiyanın payına düşürdüsə, 2021-ci ildə bu göstəricilər müvafiq olaraq 14890.4 mln. diollar və 7501.1 mln. diollar (50,4%) təşkil etmişdir.

Qeyd edilən istiqamətlərdə kompleks və ardıcıl görülən işlər iqtisadi fəallıq səviyyəsini və vətəndaşların həyat keyfiyyətini xarakterizə edən mühüm makroiqtisadi göstərici olan Ümumi Daxili Məhsulun və onun əhalinin hər nəfərinə düşən məbləğinin həcminin artmasını və davamlı müsbət dinamikasını təmin etmişdir (Cədvəl 1).

**AUDİT 2023, 1 (39), səh. 135-142.**
**AUDIT 2023, 1 (39), pp. 135-142.**
**АУДИТ 2023, 1(39), стр. 135-142.**

***Cədvəl 1.***

**2005-2021-ci illərdə Azərbaycan Respublikasının ÜDM-nun həcmi, cari qiymətlərlə, mln. manat [4,5]**

| İllər | ÜDM | | Əhalinin hər nəfərinə düşən | | 1$=manat |
|---|---|---|---|---|---|
| | mln.manat | mln. dollar | mln.manat | mln. dollar | |
| 2005 | 12522,5 | 13238,7 | 1494,3 | 1579,8 | 0,9459 |
| 2016 | 60425,2 | 37862,8 | 6269,6 | 3928,6 | 1,5959 |
| 2017 | 70337,8 | 40867,9 | 7226,0 | 4198,5 | 1,7211 |
| 2018 | 80092,0 | 47112,9 | 8156,2 | 4797,8 | 1,7000 |
| 2019 | 81896,2 | 48174,2 | 8268,8 | 4864,0 | 1,7000 |
| 2020 | 72578,1 | 42693,0 | 7277,4 | 4280,8 | 1,7000 |
| 2021 | 92857,7 | 54622,2 | 9269,3 | 5452,5 | 1,7000 |

*Mənbə: [4,5] Azərbaycanın statistik göstəriciləri, ARDSK, 2022 əsaında müəllif tərəfindən tərtib edilib*

Rəsmi statistikanın məlumatları 2005-ci ilə nisbətən 2021-ci ildə ölkənin Ümumi Daxili Məhsulunun həcminin təxminən 7,2 dəfə artdığını göstərir. Bu artım 2016-cı illə müqayisədə isə 55% təşkil etmişdir. 2017-2021-ci illər ÜDM-un nisbi dəyişməsi ildə orta hesabla 1,074 olmuşdur, yəni artım ildə orta hesabla 7,4% təşkil etmişdir. Beynəlxalq və Dünya Bankının qiymətləndirmələrinə görə, Azərbaycan ÜDM-un həcminə görə ölkələr arasında 78-ci yerdədir.

İqtisadi fəallığı və insanların həyat keyfiyyətini xarakterizə edən hər nəfərə düşən ÜDM-un həcmi 2016-cı ildə 6269,6 manat, 2019-cu ildə 8268,8 manat, 2021-ci ildə isə 9269,3 manat səviyyəsində qərarlaşmışdır. 2016-cı illə müqayisədə 2021-ci ildə bu göstəriciyə 47,6%, 2019-cu illə müqayisədə isə 12,5% artım xas olmuşdur. Beynəlxalq və Dünya Bankının qiymətləndirmələrinə görə, Azərbaycan əhalinin hər nəfərə düşən ÜDM-un həcminə görə ölkələr arasında 95-ci yerdədir. 2005-2021-ci illərdə Azərbaycanın ÜDM-nun həcmindəki müşahidə edilən meyli 1 saylı xətti qrafik daha əyani göstərir.

Qeyd edilən istiqamətlərdə həyata keçirilən tədbirlər nəticəsində makroiqtisadi sabitlik qorunub saxlanılmış, qeyri-neft sektorunun və regionların tarazlı inkişafı sürətlənmiş, strateji valyuta ehtiyatlarının həcmi artmış, sahibkarlığa dövlət dəstəyi gücləndirilmiş, əlverişli biznes və investisiya mühiti formalaşmış, əhalinin sosial rifahının yaxşılaşdırılması imkanları artmışdır.




***Şəkil 1. 2005-2021-ci illərdə Azərbaycan Respublikasının ÜDM-nun həcmi, cari qiymətlərlə, mln. manat***

**AUDİT 2023, 1 (39), səh. 135-142.**
**AUDIT 2023, 1 (39), pp. 135-142.**
**АУДИТ 2023, 1(39), стр. 135-142.**

Növbəti mərhələdə istər regionda, istərsə də qlobal iqtisadiyyatda gedən proseslərin, mürəkkəb xarici iqtisadi mühitin ölkənin makroiqtisadi və maliyyə sabitliyinə təsiri qlobal iqtisadi çağırışlara adekvat milli iqtisadi inkişaf modelinə müasir konseptual yanaşmaların daha da təkmilləşdirilməsini zəruri etmişdir.

**İqtisadiyyatın şaxələndirilməsi və yüksək gəlirli ölkə**

İqtisadi islahatların əsas strateji hədəflərinə uyğun olaraq sistem xarakterli bir sıra tədbirlərin həyata keçirilməsi, sosial-iqtisadi inkişafın cari, orta və uzunmüddətli dövrləri arasında sıx bağlılığın və qarşılıqlı uzlaşmanın təmin edilməsi, bir sözlə milli iqtisadi inkişafın keyfiyyətcə yeni modelinin formalaşdırılması məqsədilə "Azərbaycan Respublikasının milli iqtisadiyyat perspektivi üzrə Strateji Yol Xəritəsi" 11 sektor üzrə qəbul edilmişdir.

Strateji Yol Xəritəsində dayanıqlı iqtisadi inkişafa nail olunması məqsədilə 4 əsas strateji hədəf müəyyən edilmişdir:

- fiskal dayanıqlığın gücləndirilməsi və davamlı monetar siyasətin qəbul edilməsi;
- özəlləşdirmə və dövlət mülkiyyətində olan müəssisələrlə bağlı islahatların həyata keçirilməsi;
- insan kapitalının inkişaf etdirilməsi;
- əlverişli biznes mühitinin inkişafı [1].

Bu strateji hədəflərin icrası milli iqtisadiyyatın dayaqlarını möhkəmləndirərək onun şaxələnməsi, şəffaf idarəetmə və nəzarət sisteminin qurulması imkanlarını artırmışdır.

Eyni zamanda bu mərhələnin reallaşdırılması iqtisadiyyatın rəqabət qabiliyyətinin və dayanıqlığının artırılmasının əsaslarını formalaşdırımış, ölkədə həyata keçirilən iqtisadi islahatların daha da dərinləşdirilməsinə və onun sistemli xarakter almasına müsbət təsir göstərmişdir.

Dünyada gedən siyasi və iqtisadi proseslər, o cümlədən 4-cü Sənaye İnqilabı, iqlim dəyişikliyi, ticarət müharibələri, iqtisadi idarəetmə modelinin dəyişməsi, yeni infrastruktur layihələrinin həyata keçirilməsi, Azərbaycanda yeni iqtisadi modelə transformasiyanın yekunlaşması, həmçinin işğaldan azad edilmiş ərazilərdə dayanıqlı məskunlaşmanın təmin edilməsi və bu ərazilərin imkanlarının iqtisadi dövriyəyə cəlb edilməsi ölkə iqtisadiyyatını yeni perspektivlər və çağırışlarla üz-üzə qoyub.

Yeni mərhələdə sistemli yanaşmanın tətbiqi, müstəqil dövlət quruculuğunun bütün istiqamətlərində əldə edilən uğurlarını davam etdirmək üçün iqtisadiyyatın yeni keyfiyyətli inkişaf strategiyasının həyata keçirilməsini zəruri etmişdir [6].

Rəqabətqabiliyyətli milli iqtisadiyyatın formalaşdırılması, dayanıqlı iqtisadi artımın sürətləndirilməsi, inkişafdan hər bir vətəndaşın bəhrələnməsi, işğaldan azad olunmuş ərazilərə əhalinin qayıdışının təmin edilməsi məqsədilə ölkə Prezidenti tərəfindən 2021-ci il 2 fevral tarixində "Azərbaycan 2030: sosial-iqtisadi inkişafa dair Milli Prioritetlər"in təsdiq edilməsi haqqında imzalanmış Sərəncamın müstəsna əhəmiyyəti olacaqdır. Sərəncamın icrasının təmin edilməsi və Milli Prioritetlərə uyğun olaraq, "2022-2026-cı illərdə sosial-iqtisadi inkişaf Strategiya-

**AUDİT 2023, 1 (39), səh. 135-142.**
**AUDIT 2023, 1 (39), pp. 135-142.**
**АУДИТ 2023, 1(39), стр. 135-142.**

sı"nın hazırlanması prosesi gedir.

Növbəti onillikdə ölkənin sosial-iqtisadi inkişafına dair 5 Milli Proritet reallaşdırılacaqdır:

- dayanıqlı artan rəqabətqabliyyətli iqtisadiyyat;
- dinamik, inklüziv və sosial ədalətə əsaslanan cəmiyyət;
- rəqabətli insan kapitalı və müasir innovasiyalar məkanı;
- işğaldan azad olunmuş ərazilərə böyük qayıdış;
- təmiz ətraf mühit və "yaşıl artım" ölkəsi [3].

Hesablamalara görə, sözügedən strategiya layihəsinin uğurla həyata keçirildiyi təqdirdə, ölkədə 2022-2026-cı illərdə ÜDM-in orta illik artım tempinin 3,9 faiz, cari məzənnə ilə hər nəfərə düşən nominal ÜDM-un 6213 ABŞ dollarına çatacağı gözlənilir.

Yeni iqtisadi model çərçivəsində qarşıdakı dövrdə sosial-iqtisadi inkişafın strategiya-sında iqtisadiyyatının şaxələndirilməsi və qeyri-neft ixracının artırılması hesabına davamlı və yüksək iqtisadi artımın təmin edilməsi, sağlam və rəqabətli biznes mühiti üçün qanunun aliliyi və səmərəli məhkəmə islahatlarının həyata keçirilməsi, sahibkarlığa dövlət dəstəyi mexanizmlərinin səmərəliliyinin, ünvanlılığının və şəffaflığının gücləndirilməsi, dövlətə məxsus olan hüquqi şəxslərin fəaliyyətinin iqtisadi səmərəliliyi yüksəldilməsi, idarə edilməsinin yaxşılaşdırılması və şəffaflığının artırılması, qeyri-neft/qaz sektoruna birbaşa xarici investisiyanın cəlb edilməsinin təşviqi, dövlət mülkiyyətində olan aktivlərin özəl sektora transformasiyası, rəqəmsal texnologiyaların tətbiqi imkanlarının genişləndirilməsi üçün normativ hüquqi bazanın yaradılması və bu sahənin dövlət tərəfindən tənzimlənməsi, aqrar sektor, sənaye və xidmət sahələrində müasir texnologiyaların tətbiqi ilə məhsuldarlığın artırılması, həmçinin yeni iş yerlərinin yaradılması, dayanıqlı iqtisadi artım üçün ölkədə makroiqtisadi sabitliyin və onun dayanıqlığının təmin edilməsi, maliyyə sektorunun bütün seqmentlərinin sabitliyinin güclən-dirilməsi və onların iqtisadi inkişafda rolunun artırılması, ixracın şaxələndirilməsi və qeyri-neft sektoru üzrə ixracın genişləndirilməsi qətiyyətli şəkildə yer almışdır. Bu istiqamətdə mühüm əhəmiyyət kəsb edən məsələlərdən biri də işğaldan azad edilmiş ərazilərin ölkə iqtisadiyyatına reinteqrasiyasıdır.

## YEKUN

Beləliklə, həyata keçirilən köklü struktur-institusional islahatlar nəticəsində milli iqtisadiyyatın strukturu dəyişmiş, qeyri-neft sektorunun payı xeyli yüksəlmiş, ölkə iqtisadiyyatında makroiqtisadi sabitlik və dayanıqlıq təmin edilmiş, sosial rifahı dəstəkləyən iqtisadi artıma nail olunmuşdur.

Ölkədə əlverişli biznes mühitinin yaradılması iqtisadiyyatda kiçik və orta sahibkarlığın inkişafına, ərzaq təhlükəsizliyinin gücləndirilməsi üçün yerli istehsal potensialının artırılmasına müsbət təsir göstərmişdir. Eyni zamanda əhalinin sosial rifahının yaxşılaşdırılması, insan kapitalının inkişafı, keyfiyyətli səhiyyə xidmətlərinə əlçatanlığın təmin edilməsi, təmiz ekoloji mühitin

**AUDİT 2023, 1 (39), səh. 135-142.**
**AUDIT 2023, 1 (39), pp. 135-142.**
**АУДИТ 2023, 1(39), стр. 135-142.**

dəstəklənməsi, mövcud təbii resurslardan dayanıqlı və səmərəli istifadə edilməsi, bərpa olunan enerji mənbələrinin dövriyyəyə cəlb edilməsi və s. istiqamətində ardıcıl və genişmiqyaslı işlər və dövlət proqramları həyata keçirilmişdir.

Deməli, qarşıdakı dövrün iqtisadi-strateji hədəfləri davamlı inkişaf və sürətli yüksəliş vəd edir. Həyata keçirilən işlər real xarakterliyi, şəraitə adekvatlığı və konkret nəticələrlə şərtlənməsi ilə seçilir. Bunların fonunda formalaşdırılmış iqtisadi təməl iqtisadi inkişafı sürətləndirmiş, əhalinin sosial-rifah halının yaxşılaşdırılması üçün geniş perspektivlər açmış, sosialmədəni proseslərə dinamiklik vermişdir. Bütün bu qeyd edilənlər Azərbaycanın milli iqtisadi inkişaf modelinin, onun inkişaf strategiyasının uğurlu olduğunu əyani şəkildə sübut edir.

**İstifadə olunmuş ədəbiyyat siyahısı:**

1.Azərbaycan Respublikasının milli iqtisadiyyat perspektivi üzrə Strateji Yol Xəritəsi, Bakı şəhəri, 6 dekabr 2016-cı il, № 1138.

2. Azərbaycan 2030: sosial-iqtisadi inkişafa dair milli prioritetlər, 2 fevral, 2021-ci il.

3. "Azərbaycan Respublikasının 2022–2026-cı illərdə sosial-iqtisadi inkişaf Strategiyası", Bakı şəhəri, 22 iyul 2022-ci il, №3378.

4.Azərbaycanın statistik göstəriciləri, ARDSK, 2022.

5.Azərbaycan rəqəmlərdə, ARDSK, 2022.

6. Hüseynov T. Azərbaycanın milli iqtisadi inkişaf modeli: nəzəriyyə və praktika. Bakı, "Elm", 2015, 466 səh.

7. Nuriyev Ə. Azərbaycanda iqtisadi inkişaf və modernləşmə siyasətinin konseptual əsasları, "Avropa", Bakı, 2013,417 s.

8. Кульков В. М. Новые аспекты национально ориентированного подхода в анализе экономики // Проблемы современной экономики, 3(83), 2022, стр. 66.

9. Экономика развития : учебное пособие / Н.Р. Кельчевская, В.А. Шапошников, И.С. Пелымская, И.В. Баскакова ; под общ. ред. Н.Р. Кельчевской ; Министерство науки и высшего образования Российской Федерации, Уральский федеральный университет. Екатеринбург : Изд-во Урал. ун-та, 2021, 116 с.

10. Повестка дня на XXI век // ООН. Конвенции и соглашения : [сайт]. Режим доступа: https://www.un.org/ru/documents/decl_conv/conventions/agenda21.shtml (2020).

11.Marsh P. The new industrial revolution: consumers, globalization and the end of mass production, l, 2019 - 311 p.

12. https://1economic.ru

13. https://creativeconomy.ru

14. https://www.economist.com

15.https://worldecomag.com

**AUDİT 2023, 1 (39), səh. 135-142.**
**AUDIT 2023, 1 (39), pp. 135-142.**
**АУДИТ 2023, 1(39), стр. 135-142.**

*Ayatulla Suvakhil Jabbarov, Ph.D. (Econ.),*
*Baku Business University,*
*E-mail: ayatulla.cabbarov@gmail.com*
*© A.S. Jabbarov, 2023*

# MODERN NATIONAL ECONOMIC DEVELOPMENT MODEL IN THE CONTEXT OF UPDATED GLOBAL AND REGIONAL PERSPECTIVES

## A B S T R A C T

The Azerbaijani national model of economic development not only differs from others in a number of aspects, but also stands out with certain advantages. One of the advantages of this model is its ability to develop freely, which contributes to the growth of domestic investment in the country, the implementation of global projects at the expense of the state budget, and skillful protection from the consequences of global crises.

In the article, in the context of updated global and regional perspectives, the main principles of the modern model of national economic development, theoretical, methodological and practical aspects of strategic directions of development are described.

The article analyzed the national economic model of Azerbaijan from a scientific, theoretical and practical point of view, indicated its features, gave an objective assessment of the economic results obtained, substantiated the concept of a national economic model at a new stage, and identified priority areas for long-term sustainable and balanced economic development. At the same time, the national model of Azerbaijan's economic development, formed within the framework of global trends, challenges and opportunities, a stable and increasingly competitive economy, and a society based on dynamic, inclusive and social justice, was considered.

**Keywords:** economic reform, model of national economic development, macroeconomic stability, GDP, sustainable development, economic diversification, strategic road map.

**AUDİT 2023, 1 (39), səh. 135-142.**
**AUDIT 2023, 1 (39), pp. 135-142.**
**АУДИТ 2023, 1(39), стр. 135-142.**

*Джаббаров Аятулла Сувахил оглы,*
*доктор философии по экономике,*
*Бакинский Университет Бизнеса,*
*E-mail: ayatulla.cabbarov@gmail.com*
*© Джаббаров А.С., 2023*

# СОВРЕМЕННАЯ МОДЕЛЬ НАЦИОНАЛЬНОГО ЭКОНОМИЧЕСКОГО РАЗВИТИЯ В КОНТЕКСТЕ ОБНОВЛЕННЫХ ГЛОБАЛЬНЫХ И РЕГИОНАЛЬНЫХ ПЕРСПЕКТИВ

## Р Е З Ю М Е

Азербайджанская национальная модель экономического развития не только отличается от других по ряду аспектов, но и выделяется определенными преимуществами. Одним из преимуществ этой модели является ее способность к свободному развитию, что способствует росту внутренних инвестиций в стране, реализации глобальных проектов за счет средств государственного бюджета, умелой защите от последствий глобальных кризисов.

В статье в контексте актуализированных глобальных и региональных перспектив описаны основные принципы современной модели национального экономического развития, теоретические, методологические и практические аспекты стратегических направлений развития.

В статье с научно-теоретической и практической точки зрения была проанализирована национальная экономическая модель Азербайджана, указаны ее особенности, дана объективная оценка полученным экономическим результатам, обоснована концепция национальной экономической модели на новом этапе, обозначены приоритетные направления долгосрочного устойчивого и сбалансированного экономического развития. В то же время была рассмотрена национальная модель экономического развития Азербайджана, сформированная в рамках глобальных тенденций, вызовов и возможностей, стабильной и все более конкурентоспособной экономики, и общества, основанного на динамичной, инклюзивной и социальной справедливости.

**Ключевые слова:** экономическая реформа, модель развития национальной экономики, макроэкономическая стабильность, ВВП, устойчивое развитие, диверсификация экономики, стратегическая дорожная карта.

*Məqalə redaksiyaya daxil olmuşdur: 25.01.2023*
*Təkrar işləməyə göndərilmişdir: 02.02.2023*
*Çapa qəbul olunmuşdur: 17.02.2023*

*Дата поступления статьи в редакцию: 25.01.2023*
*Отправлено на повторную обработку: 02.02.2023*
*Принято к печати: 17.02.2023*

*The date of the admission of the article to the editorial office: 25.01.2023*
*Send for reprocessing: 02.02.2023*
*Accepted for publication: 17.02.2023*